Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Azərbaycan milli mətbuatının ilk qaranquşu – Əkinçi

**Milli Mətbuat və Jurnalistika Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2021**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycan milli mətbuatının ilk qaranquşu – Əkinçi:** 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli adına Respublika Uşaq Kitabxanası; tərt. ed. A.Əliyeva; ixt. red. və burax. məsul Ş. Qəmbərova. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2021. – 25 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçidən

Hər hansı ölkə ilə işgüzar, iqtisadi münasibətlər qurmazdan əvvəl onun hansı dəyərlərə sahib olduğunu anlamağa çalışırsan. Maddi dəyərlərini araşdırmazdan əvvəl həmin ölkənin milli-mənəvi dəyərlərini qiymətləndirirsən. Hər dəfə də əmin olursan ki, maddi dəyərlər yalnız tutarlı, zəngin ənənəli milli-mənəvi dəyərlər mövcud olduğu halda mümkündür. Əsrlər boyunca Azərbaycanın müdrik oğulları qeyri-maddi, mənəvi dəyərlərin yaradılması üçün yorulmadan, əzmlə çalışıb. Bu gün müasir cəmiyyəti mətbuatsız, mədəniyyətsiz, təhsilsiz, iqtisadi və siyasi nailiyyətlər olmadan təsəvvür etmirik.

Klassiklərimiz mətbuatı insanların ruhunu təzələyən səhər mehi, cəmiyyətin hərəkətverici qüvvələrindən biri, dövrün aynası, xalqın görən gözü, eşidən qulağı və s. epitetlərlə təqdim və təqdir etmişlər. Doğrudan da ümummilli mədəniyyətin tərkib hissəsi olan mətbuat mənsub olduğu xalqın həyata baxışlarını, məişət və yaşayış tərzini, ictimai-mədəni proseslərə sosial-psixoloji münasibətini özündə əks etdirən, eyni zamanda onun hər hansı məsələyə münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayan bir vasitədir. Ona görə mətbuatın elmi-nəzəri, metodiki və təcrübi baxımdan dərki və inkişaf mərhələlərinin şəhri də diqqət mərkəzində olmuş, bu barədə şeir, məqalə və kitablar yazılmış, bir-birindən maraqlı fikirlər söylənmişdir. İş elə gətirmişdir ki, mətbuata, onun əhəmiyyətinə dair ilk qiymət verib fikir söyləyən qələm əhli də elə şair, yazıçı və publisistlər olmuşlar. Milli mətbuat tariximizin keçdiyi yolu araşdıran, onun ümumi mənzərəsini canlandırmağa çalışmaq təşəbbüsü ilə qələmə sarılanlar da mətbuat və ədəbiyyat xadimləri olmuşlar. F.Köçərli, Ə.Ağayev, M.Şaxtaxtlı, M.B.Məhəmmədzadə və başqaları bu qəbildəndir.

Bu gün 22 İyul – Milli Mətbuat və Jurnalistika Günüdür. Bu gün bu uğurlu yolun ildönümüdür. Bu yubiley münasibətilə vəsait

işləməyi özümüzə borc bildik. Böyük fəxarət hissi ilə yazdığımız bu vəsait *"Giriş" və "Keçiriləcək tədbirlər"* adlanan hissələrdən ibarətdir. I hissədə bu günün yaranma tarixindən bəhs edilir. II hissədə isə bu günlə bağlı kitabxanalarda təşkil olunan tədbirlərdən söhbət açılır.

## Görkəmli şəxslər Milli Mətbuat və Jurnalistika Günü haqqında

Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Hər bir qələmin öz müqəddəs vəzifəsi var: birinci növbədə millətin xoşbəxtliyi yolunda xidmət etmək! Bu ola gərək hər bir qələm sahibinin amalı.

**Mirzə Cəlil,**
*İctimai xadim, yazıçı*

# Giriş

Azərbaycan mətbuatının keçdiyi tarixi yol yaş etibarilə o qədər də böyük deyil. Lakin bu yolun şərəf, ləyaqət yolu olduğu heç kimdə şübhə doğurmur. Mətbuatımızın keçdiyi tarixi yol xalqımızın qürur mənbəyidir. Milli inqilabın yeni mərhələsini təmsil edən "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu bu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın kamilləşməsinə, maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində bərkiyib formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Təbiətşünas alim, yorulmaz maarifpərvər Həsən bəy Zərdabi həmin qəzeti – "Əkinçi" ni nəşr etdirməklə Azərbaycan demokratik mətbuatının bünövrəsini qoydu və "Əkinçi" Azərbaycanda ictimai fikrin canlanmasına təkan verdi. H.Zərdabi nəşr etdirdiyi qəzetin adını "Əkinçi" qoysa da, orada qabaqcıl mütərəqqi ideyalar təbliğ olunurdu. Azərbaycan xalqının ana dilində oxuması çox əlamətdar bir hadisə idi. "Əkinçi" də öz növbəsində ana dilinin saflığı, zənginləşməsi uğrunda mübarizə aparırdı. Həsən bəy Zərdabi öz həyatı boyu, eləcə də qəzetin səhifələrindəki yazı ilə xalqa fayda verən işlərlə məşğul olmağı əsas vəzifə hesab edir, Azərbaycanda peşəkar teatrın bünövrəsini qoymaq, xeyriyyə cəmiyyətini açmaq Bakı Realnı Məktəbində müəllimlik və maarifçiliyi inkişaf etdirmək və s. ilə məşğul olurdu. O, əməkçi xalqa, onun tərəqqisinə və mübarizəsinə xidmət edən, zülmə, haqsızlığa, rəzalətə qarşı və ümumiyyətlə, xalqı cəhalətdə saxlayan, onun inkişafına maneəçilik törədən hər bir şeyə qarşı mübarizə aparan mətbuatın tərəfdarı idi. XIX əsr Azərbaycan ictimai fikri, mətbuatı, ədəbiyyatı və dilinin, həmçinin təbiətşünaslıq elminin tarixini öyrənmək üçün "Əkinçi" çox böyük və mühüm bir mənbə idi. Qəzetin "Daxiliyyə", "Elm xəbərləri",

"Mətbuat", "Əkin və ziraət xəbərləri" və "Əfhali-əhli-dehat" bölmələrində faktlara əsaslanan çox qiymətli yazılar dərc olunurdu. Həsən bəy müxtəlif rublikalar altında verilən qəzet materiallarında özünün və əqidə dostlarının S.Ə.Şirvani, Əlimədəd Abdullahzadə, Məmnun Əlqədari, Əhsənül-Qəvaid, Məhbus Dərbəndi, N.B.Vəzirov, Əsgər ağa Gorani və başqalarının mütərəqqi fikirlərini yayır və məqsədinə nail olmaq üçün müxtəlif formalardan bacarıqla istifadə edirdi. Hər bir sahədən oxuculara bilik və məlumat verməyə, həmvətənlərində savad ehtiyatı yaratmağa səy göstərirdi. "Əkinçi" yə nəzər salarkən onun ictimai, iqtisadi, elmi, mədəni işi sırf əməli və maarifləndirici işlə bir yerdə paralel surətdə aparılmasının canlı şahidi oluruq. Qəzetin səhifələrində dərc olunan yazıların əksəriyyətində yeni tipli mədəniyyət yaradılması məsələləri – qədim ədəbiyyat, incəsənət, dil, pedaqogika, dərslik, tərcümə, kitab nəşri, kitabxana, məktəb və s. əsas yerlərdən birini tuturdu. Eyni zamanda kiçikyaşlı məktəb uşaqlarına dərslik əvəzinə "Leyli və Məcnun", "Min bir gecə", "Pişik və siçan" kimi əsərlərlə onların mütaliə dairəsinin məhdudlaşdırılması məzəmmət və tənqid edilirdi. Qəzet pedaqoji meyillərin təbliği ilə yanaşı məktəb, təlim-tərbiyə məsəlləri ətrafında mübahisə və müzakirələrindən də çəkinməmişdir. H.Zərdabi 1876-cı ildə dərc etdirdiyi bir məqaləsində Bakıda klub açmaq, qiraət üçün kitab və qəzet gətirmək, Azərbaycan dilində elmi kitablar hazırlayıb çap etmək məqsədilə xüsusi bir cəmiyyət düzəldilməsi məsələsini irəli sürmüşdür. "Elmi xəbərlər" bölməsində dərc olunan yazılar, əsasən maarifləndirici məqsəd daşıyırdı. O zaman Bakıya gəlmiş bir fransız jurnalisti H.Zərdabi ilə söhbətində belə demişdi: "Doğrusu, siz əsl qəhrəmansınız! Bizim Fransada belə bir yoxsul qəzet üçün işləmək istəyən adam tapmaq olmazdı. Sizin qüvvətinizə heyran edirəm. Belə məlum olur ki, siz öz xalqınızı çox istəyirsiniz". Zərdabi "Əkinçi" vasitəsilə Azərbaycan ellərinə maarif işığı saçacağı

günləri düşünür və bu məqsədlə yorulmadan çalışırdı. Bununla bağlı suallara isə “at ölüncə otlar” deyə cavab verirdi. Bu gün ölkədə mindən çox kütləvi informasiya vasitəsi qeydiyyatdan keçib. Onların bir hissəsi daimi olaraq nəşr olunur. Azərbaycan artıq qlobal informasiya sisteminə qoşulub. Bir çox demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da Mətbuat Şurası yaradılıb və “Mətbuat haqqında” qanun qəbul edilib. Azad mətbuatın inkişafı, iqtisadi müstəqilliyin təmin edilməsi, reklam bazarında müəyyən nöqsanların aradan qaldırılması, sosial vəziyyətin yaxşılaşdırılması məqsədilə xüsusi proqram hazırlanıb və dövlət başçısına təqdim edilib. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilib. Digər Qanunverici Aktlarında da möhkəmləndirilmiş azadlıqlar – vətəndaşların qanuni yolla informasiya tapmaq, almaq, hazırlamaq, ötürmək və yaymaq hüquqları dövlət təminatına əsaslanır. Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təmin olunması üzrə bir sıra Beynəlxalq Konvensiya və Sazişlərə qoşulub. Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli “Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən edib. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkənin nüfuzlu beynəlxalq təşkilata – Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin martın sonunda imzaladığı

sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir. 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra onlayn tədbirlər: zoom proqramı ilə təşkil olunmuş kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, rəsm müsabiqəsi, icmal və s. keçirilə bilər. Bununla belə 22 İyul – Milli Mətbuat və Jurnalistika Gününü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Bu mövzu ilə bağlı Azərbaycanın ilk qəzet nümunələri, məqalə və kitabları, həmçinin dünya mətbuatından nümunələr sərgidə öz yerini alır. Müxtəlif ədiblərin, görkəmli şəxsiyyətlərə məxsus kəlam və materialları da sərgidə nümayiş oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Əkinçidən düşən işıq", "Əkinçiyə gedən yol", "Maarifçi ideyalar "Əkinçi"si Həsən bəy Zərdabi", "Maarifçi insanlar, qəzet yaradanlar", "Azad söz, azad fikir, demokratik düşüncə", "İlk kitabımız", "Sözdən başlanan dünya", "Milli dirçəlişin başçısı", "Xalq müəllimi – Həsən bəy Zərdabi", "Jurnalist qələmi, vətəndaş ürəyi", "Milli mətbuatımızın atası", "O, bir məşəl idi, əbədi yanar", "Maarif carçısı – Zərdabi və silahdaşları", "Maarif və tərəqqi carçıları", "Azərbaycan milli mətbuatının ilk qaranquşu – Əkinçi", "Əkinçidən düşən işıq", "Nəsillərə örnək olan qələm sahibləri", "Yandırdığı maarif məşəlini ömrünün sonunadək əlindən yerə qoymayan Həsən bəy Zərdabi" və s.

# Kitab sərgisi





















https://drive.google.com/file/d/1LEt9CVtElwhs27QLl6oz6jXSOG4P7Dbo/view

https://drive.google.com/file/d/1ddveaC4wv5GZBWk_A-0nuA-tNhWGqmQR/view

https://drive.google.com/file/d/1Aq9VOzCPh9OfmpJaR5XKvPFRgUSfY3D6/view

https://drive.google.com/file/d/1_xR0l94pFO-tRZ-weHZAAP1JatMhrAu6/view?usp=sharing

https://drive.google.com/file/d/1IUcn7QUK7hwhZXY3N1_Gqt41h3QZQvee/view?usp=sharing

https://drive.google.com/file/d/1wVAsvK7x_aurRaI0vRZRw3Re4nlCPyd3/view?usp=sharing

https://drive.google.com/file/d/10T8H6-hIxcccKUUTh_Oiua4sT4mhrh6Y/view?usp=sharing

https://drive.google.com/file/d/1mpVJlZIFKyy3W1_cO8CdQWbKM5cU98qS/view?usp=sharing

Pandemiya ilə əlaqədar olaraq 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar bir çox təhsil ocaqlarında, eləcə də kitabxanalarda tədbirlərin virtual şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. Virtual tədbirdə bu mövzuda nəşr olunan kitablardan ibarət sərgi təşkil olunur. Metodist sərgi ətrafında oxucularla *"Maarifçi insanlar, qəzet yaradanlar"* adlı **söhbət** keçirir. Söhbət zamanı Milli mətbuat və jurnalistika gününə həsr olunmuş kitablar haqqında ətraflı məlumat verilir.

**Kitabxanaçı:** Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı milli mətbuatın yaranması zərurətini doğurmuşdur. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Bununla əlaqədar o İstanbuldan hürufat gətirtdirmiş və nəhayət, xeyli zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür. "Əkinçi" qəzetində Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin Moskvadan, Məhəmmədtağı Əlizadə Şirvaninin Şamaxıdan, Heydərinin Dərbənddən göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunmuşdur. Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin dəsti-xətti əsasən bir ideya üzərində qurulmuşdur. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi. İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata da aid yeni demokratik tələblər irəli sürürdü. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov köhnə şeirlərlə yanaşı, şairləri müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi. Təbii ki, bu cür demokratik məqalələrindən sonra çarizmin

diqtəsi ilə özlərini “ziyalı” sayan bəzi üzdəniraq insanlar yerbə-yerdən “Əkinçi” nin üzərinə hucuma keçdilər. 1877-ci il sentyabrın 29-da “Əkinçi” öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan “Əkinçi” realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi. “Əkinçi” qəzeti bağlandıqdan sonra çar hökuməti üçün “təhlükəli” hesab edilən Zərdabinin Bakıda qalması lazım bilinmirdi. Bu məqsədlə Həsən bəy Zərdabi Yekaterinodar Şəhər Gimnaziyasına müəllim göndərmək adı ilə 1878-ci ildə Bakı real gimnaziyasındakı işindən – müəllimlikdən azad edildi. İki ilədək bir müddət ərzində işsiz qalan millət fədaisi Bakı şəhərində hara müraciət edirsə onu heç bir yerdə işə qəbul etmirdilər. Nəhayət, 1880-ci ildə ailəsi ilə birgə, doğulub boya-başa çatdığı Zərdab kəndinə köçmüş və 16 il burada həyat sürmək məcburiyyətində qalmışdır.

O, Zərdabda kənd təsərrüfatı sahəsində kəndlilərə məsləhətlər verir, məqamı yetişəndə yerli camaata öz maarifpərvər, demokratik ideyalarını çatdırırdı. Bakıdan kənarda yaşamasına baxmayaraq, o yenə də mətbuatda fəal iştirak edirdi. 1880-1890-cı illərdə naşirin Bakıda və Tiflisdə çıxan “Ziya”, “Kəşkül”, “Kaspi”, “Novoye obozreniye” və s. qəzetlərdə Azərbaycan və rus dillərində çoxlu elmi-kütləvi məqalələri nəşr olunmuşdur.

Həsən bəy Zərdabi 1875-ci ildə “Əkinçi” qəzetinin 1, 4, 8- ci, 1876-cı ildə 26-cı saylarında və 1899-cu il “Kaspi” qəzetinin 172-ci sayında torpaqşünaslığın əsas müddəaları və əkinçilik mədəniyyəti haqqında ətraflı məlumatlar vermişdir, torpağın xışla deyil, kotanla şumlanmasını təklif etmişdir. Həyatının son illərində Həsən bəy Zərdabi Bakı Şəhər Dumasında maarif

şöbəsində rəsmi vəzifədə çalışaraq Bakı və ətraf kəndlərdəki məktəblərə başçılıq etmişdir. 1906-cı ildə Bakıda keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayında fəal nümayəndələrdən biri də o olmuşdur. Gərgin elmi fəaliyyətlə məşğul olan Həsən bəy Zərdabi həddindən artıq işləyib özünü yorduğu üçün iflic olmuş və 1907-ci il noyabr ayının 28-də vəfat etmişdir. O, 1907-ci ildə köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunsa da, 1937-ci ildə həmin ərazi dağıdılmış, mərhumun sümükləri bir neçə il evdə ailəsinin yanında qalmışdır. 1957-ci ildə Həsən Bəy Zərdabinin vəfatının 50 illiyi qeyd olunarkən onun sümükləri Fəxri Xiyabanda dəfn olunmuşdur. Azərbaycan Təbiət Tarixi Muzeyi Həsən bəy Zərdabinin adını daşıyır.

Kitabxanada 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar *onlayn* şəkildə *"Maarif carçısı-Zərdabi və silahdaşları"* adlı **konfrans**ın təşkili də məqsədəuyğundur. Konfrans zoom proqramı vasitəsilə ilə həyata keçirilir. Konfransa ədəbiyyat müəllimləri, jurnalistlər, yazarlar və yuxarı sinif şagirdləri virtual olaraq dəvət olunur. Təyin olunmuş vaxtda virtual iştirakçılar kitabxana əməkdaşının təqdimatı ilə müəyyən ardıcıllıqla öz çıxışlarına keçid alırlar.

Proqramda konfransda çıxış edərək qonaqların, tarixçilərin, siyasətçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Konfrans zamanı Milli Mətbuat və Jurnalistika Günü haqqında kitab və digər yazılar yazmış jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Milli Mətbuat və Jurnalistika Günü yaranması və bayram olaraq qeyd edilməsi haqqında çıxış);

2. Milli Mətbuat və Jurnalistika Günü haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları;

3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların dünya mətbuatında və Azərbaycan mətbuatında söz və fikir azadlıqları haqqında fikirləri;

4. Konfransın yekunu.

**Kitabxanaçı:** Deyirlər ki, mətbuat güzgüdür, cəmiyyətin güzgüsü. Cəmiyyət hansı səviyyədədirsə, mətbuat da o səviyyədədir. Ötən əsrin sonlarında yenidən müstəqillik qazanan Azərbaycanda elə ilk dövrlərdən başlayaraq müstəqil mətbuat formalaşmağa başlamışdı. Sözsüz ki, o dövrün ağır ictimai-siyasi və iqtisadi durumu mətbuata da öz təsirini göstərirdi. Söz və fikir azadlığının hər addımda boğulması, jurnalistlərin fiziki və mənəvi təzyiqlərə məruz qalması da həmin dövrün xarakterik cəhətlərindən idi.

**I iştirakçı:** Uzun müddət Zaqafqaziyanın inzibati və mədəni mərkəzinin Tiflis şəhəri olması mətbuat və ədəbiyyata da öz təsirini göstərmişdir. Bakıda ilk rus qəzetinin nəşrinədək Azərbaycan xalqının iqtisadi və mədəni həyatına aid faktları Tiflisdə çıxan rus qəzetləri əks etdirirdi. XIX əsrin 20-ci illərindən başlayaraq "Tiflisskiye vedomosti", "Zakavkazski vestnik", "Kavkaz", "Novoye obozreniye" və başqa qəzetlərdə Azərbaycan xalqının ədəbi həyatına aid yazılar əhəmiyyətli yer tuturdu.

"Tiflisskiye vedomosti" Qafqazda rus dilində çıxan ilk qəzet idi. Bu qəzetdə dekabristlərin iştirakı, qəzetin redaktor müavini V.D.Suxorukovun 14 dekabr hadisələri ilə sıx əlaqədar olması və s. haqqında məlumatlar vardır. Rus-Azərbaycan ədəbi əlaqələri haqqında maraqlı tədqiqatlar aparan alimlər "Tiflisskiye vedomosti" qəzeti haqqında da yeri gəldikcə bəhs etmişlər. "Tiflisskiye vedomosti" qəzetinin bəzi məqalələri mərkəzi qəzetlərdə yenidən dərc edilirdi. Bu qəzet 1829-cu ildə gürcü dilində, 1830-cu ildə fars dilində, 1832-ci ildə isə Azərbaycan dilində də buraxılmışdır. Azərbaycanca qəzetin adı "Tiflis əxbarı" idi.

**II iştirakçı:** 1877-1878-ci illər Rus-Türk müharibəsi başlanan zaman arxa cəbhədə "türk-tatar" dilində qəzetin mövcudluğundan ehtiyat edən Rusiya hökumətinin göstərişi ilə 1877-ci ilin sentyabrın 29-da "Əkinçi"nin nəşrinə rəsmən xitam verilmişdi. Bundan sonra "Ziya", "Kəşkül" qəzetləri işıq üzü gördü. "Kəşkül", "Əkinçi" ilə "Ziya" arasında orta bir mövqe tutmuşdu, lakin "Əkinçi" yə daha artıq dərəcədə meyli hiss edilirdi. Ziyalıların şüurunda "Azərbaycan milləti" məfhumunun oyanması "Kəşkül" dövrünə təsadüf edirdi. Onlar başa düşmüşdülər ki, "din" və "millət" məfhumları ayrı-ayrı şeylərdir. "Kəşkül" qəzeti öz səhifələrində bu məsələləri aydınlaşdırmağa səy göstərmiş və ictimai-siyasi şüurun inkişafına kömək etmişdir. "Kəşkül" Azərbaycan millətinin inkişafı və başqa millətlərlə dostluq əlaqələrini möhkəmlətməsi haqqında da müsbət səciyyə daşıyan məqalələr verirdi. Bu məqalələrin bir çoxu mövzusu, ideya istiqaməti, dili və üslubu, ehtiraslılığı ilə fərqlənirdi.

1870-ci ildən 1889-cu ilədək Qafqazda 56 mətbuat orqanı fəaliyyət göstərmişdir. Bunun 20-si rus dilində, 15-i gürcü dilində, 15-i erməni dilində, 3-ü Azərbaycan dilində idi. Əgər ayrı-ayrı elmi cəmiyyətlərin, idarə və təşkilatların rəsmi nəşrlərini də nəzərə alsaq, həmin rəqəm 69-a çatar. Həmin mətbuat orqanlarının bir çoxunun ömrü lap az olmuşdur. Cəmi 23 mətbuat orqanı 5 ildən yuxarı yaşaya bilmişdir. Bunlardan rus nəşrləri aşağıdakılardır: "Qafqaz", "Tiflisski vestnik", "Tiflisskiye obyavleniya", (Tiflisski listok), "Kaspi", "Yuridiçeskoe obozrenie", "Bakinskiye izvestiya", (Bakinski torqovo-promışlennı listok) və "Severnı Kavkaz".

**III iştirakçı:** Bakıda rus dilində çıxan qəzetlər ideya - siyasi nöqteyi-nəzərindən Qafqazın digər şəhərlərində çıxan rus qəzetləri ilə bir cərgədə gedirdi. Azərbaycanda çıxan ilk rus qəzeti "Bakinski listok" hesab edilirdi. Qəzetin redaktoru Bakı real gimnaziyasının müəllimi Xristian Sink idi. Qəzetin ilk

nömrəsi 1871-ci ilin martın 19-da (6-da) çıxmış, iyun ayında bağlanmışdır. 1872-ci ilin yanvarında qəzetin nəşri yenidən bərpa olunmuşdur. Həmin il iyunun 3-dək davam etmişdir.

1876-cı ildə Bakıda rus dilində ikinci bir qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. Bu qəzet quberniya idarəsinin rəsmi orqanı idi və general - qubernator D.S.Staroselskinin təşəbbüsü ilə buraxılmışdı. Staroselski 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrinə də kömək etmişdi. Onun "Bakinskiye izvestiya" qəzetini çıxarmaqda məqsədi Bakı quberniyası haqqında oxuculara geniş məlumat vermək idi. O, hələ qəzet çıxmazdan xeyli əvvəl quberniya idarəsinin nəzdində mətbəə açmışdı, çapçılar dəvət etmişdi. 1888-ci ildən sonra qəzet "Bakinski torqovo - promışlennı listok" adı ilə çıxmışdır.

1894-cü ilin yanvarından "Bakinskiye qubernskiye vedomosti" adlı rəsmi dövlət qəzeti də fəaliyyətə başlamışdır. Qəzet teleqram və elanları olan əlavəsi ilə çıxırdı. Bu teleqram və elanların bir hissəsi Azərbaycan dilində buraxılırdı. Qəzet 1916-cı ilə qədər çıxmışdır. Adları çəkilən bu qəzetlərin hamısında rəsmi xəbərlər, qərarlar, elanlar və teleqramlar geniş yer tuturdu. Bakıda rus dilində çıxan burjua qəzetləri içərisində "Kaspi" qəzeti daha uzun ömür sürmüş, müxtəlif dövrlərdə cəmiyyətin həyatını öz baxışları nöqteyi-nəzərindən əks etdirmişdir. Qəzetin 1881-ci ildən 1919-cu ilədək müddətdə 10 min 65 nömrəsi çıxmışdır.

**IV iştirakçı:** "Kəşkül" qəzeti bağlandıqdan sonra Tiflisdə Azərbaycan dilində mətbuat orqanı yaratmaq üçün bir neçə dəfə təşəbbüs olmuşdur. Məsələn, Məmmədağa Şahtaxtinski 1896-cı ildə Azərbaycan dilində "Tiflis" adlı, Kamal Ünsizadə isə 1900-cü ildə "Daniş" adlı qəzet çıxarmaq istəmişlər. Lakin onların təşəbbüsü fayda verməmişdir. M.Şahtaxtinskinin "Şərqi-Rus" adlandırdığı qəzetin birinci nömrəsi 1903-cü il martın 30-da çıxmışdır. Əvvəllər o, həftədə üç dəfə buraxılırdı. 1904-cü il iyunun 8-dən etibarən gündəlik qəzetə çevrilmişdir. "Şərqi-rus"

qəzeti XX əsrin ilk Azərbaycan qəzetidir, həm də ilk gündəlik Azərbaycan qəzetidir.

Azərbaycan mətbuatının qürurverici tarixi nəşrlərindən biri də ideyaları və onların gerçəkləşmə üsulları heç vaxt köhnəlməyən "Molla Nəsrəddin" jurnalıdır. Jurnalın redaktoru Mirzə Cəlilin əsas qayəsi milləti müasir dünyaya uyğun ölçülər səviyyəsində görmək idi. "Molla Nəsrəddin" bu amallar uğrunda mübarizə fonunda yaranmışdı. Jurnalın ilk nömrəsi 1906-cı il aprelin 7-də çıxdı. Jurnalın yazıları bütöv bir millətin başına açılan oyunların, əzab-əziyyətlərin, haqsızlıqların satirik ifadəsi idi. Jurnalın birinci nömrəsi 1.000 nüsxə tirajla çap olunub yayılandan sonra az müddətdə "Molla Nəsrəddin" adı dillərdə gəzməyə başladı. Nəticədə jurnalın 2-ci nömrəsi 2.000 nüsxə tirajla çıxarıldı.

C.Məmmədquluzadə senzor tərəfindən jurnalda nəşr olunmasına icazə verilməyən şəkillərin və ya materialların yerini ağ saxlayır və yaxud "Bizdən asılı olmayan səbəblərə görə bu yer ağ qaldı" deyə yazırdı.

"Molla Nəsrəddin" in cəsarətli çıxışları onunla nəticələndi ki, 1907-ci il iyunun 8-də Tiflis general-qubernatoru jurnalın bağlanması haqqında əmr verdi. Bu hadisə xalqın böyük narazılığına səbəb oldu. Bakıdan, Şəkidən, Zaqafqaziyanın bir sıra başqa yerlərindən Tiflisə jurnalın nəşrinin bərpasını tələb edən məktublar gəlirdi. Qısa fasilədən sonra jurnalın 23-cü nömrəsi iyulun 25-də çıxdı. 1908-1909-cu illərdə bir neçə dəfə "Molla Nəsrəddin" jurnalını bağlamağa təşəbbüslər edilmişdir.

1920-ci ildə C.Məmmədquluzadə öz ailəsi ilə köçüb Cənubi Azərbaycana getmişdir. 1921-ci ilin fevralında o, jurnalın nəşrini Təbrizdə yenidən bərpa etmişdir. Təbrizdə "Molla Nəsrəddin" jurnalının 8 nömrəsi çıxmışdır. Sovet hökumətinin təşəbbüsü ilə "Molla Nəsrəddin" in nəşri 1922-ci ilin noyabrında Bakı şəhərinə köçürülmüş və jurnal 1931-ci ilə qədər burada çıxmışdır. Jurnalın sonuncu nömrəsi 1931-ci il yanvarın 7-də buraxılmışdır.

**V iştirakçı:** 1919-cu ildə 20-dən çox bolşevik qəzeti nəşr olunmuşdur. Azərbaycan dilində “Bakı Fəhlə Konfransının Əxbarı”, “Azərbaycan gəncləri”, “Hürriyyət”, “Haqq”, “Füqəra sədası”, “Zəhmət sədası”, “Oktyabr inqilabı”, “Gənc işçi”, “Azərbaycan füqərası”, rus dilində “Nabat”, “Molot”, “Proletari”, “Raboçi put”, “Qolos truda”, “Bednota”, “Molodoy raboçi”, “Novı mir” və başqaları Azərbaycan bolşeviklərinin nəşr etdikləri qəzetlər idi. Doğrudur, bu qəzetlərin ömrü çox az olmuş, bəzilərinin cəmi bir və ya bir neçə nömrəsi çıxmışdır. “Kommunist” qəzeti “Hümmət’’, “Qoç-Dəvət”, “Təkamül”, “Yoldaş”, “Hümmət” (1917-1918-ci illər), “Bakı Şurasının Əxbarı” kimi bolşevik qəzetlərinin davamçısı olaraq meydana atıldı. “Kommunist” 1919-cu il avqustun 29-da həyata gəldi. Azərbaycan bolşevikləri “Kommunist” i hökumət orqanlarından xəbərsiz, gizli buraxmışdılar. “Kommunist” in 1919-cu il gizli çıxan nömrəsini Ruhulla Axundov redaktə etmişdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci il aprelin 30-da Əliheydər Qarayevin redaktorluğu ilə “Kommunist” leqal şəkildə öz nəşrinə başladı.

**VI iştirakçı:** Azərbaycanda sovet hakimiyyətinin ilk illərində “Kommunist” və “Bakinski raboçi” qəzetlərinin səhifələrində qəzalardan tez-tez materiallar dərc olunurdu. 1923-cü il iyunun 16-da Bakıda “Kəndçi qəzetəsi”nin birinci nömrəsi çapdan çıxdı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi (KPMK) 1923-cü il iyulun 2-də Bakıda Şərq qadınlarının, xüsusilə Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan “Şərq qadını” nın nəşr olunmasını qərara aldı. “Şərq qadını” jurnalının 1-ci nömrəsi 1923-cü ilin noyabrında 40 səhifədən ibarət 1000 nüsxə tirajla çapdan çıxmışdır. Jurnalın ilk redaktoru Ayna Sultanova olmuşdur. 1938-ci ildən “Şərq qadını”, “Azərbaycan qadını” adı ilə nəşr olunmağa başlayıb.

1926-cı ildə Bakı şəhər komsomol təşkilatının konfransı çağırılmışdı. Konfransın keçirildiyi gün bir dəstə fəal məktəbli üzərində "Pioner" sözü yazılmış 28 səhifəlik jurnal hazırlamışdı. Uşaqların xətti ilə yazılmış cəmi 50 nüsxə jurnal konfrans iştirakçılarının çox xoşuna gəldi. Həmin nüsxələr "Pioner" jurnalının ilk qaranquşu oldu. Aradan bir neçə ay keçəndən sonra, yəni 1927-ci ilin fevralında "Pioner" jurnalı kütləvi tirajla çıxmağa başladı.

1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək "Müəllim qəzeti" adlandırıldı. Qəzet 1941-ci ilin iyununadək bu adla nəşr olundu. 1946-cı ilin aprelindən "Azərbaycan müəllimi" adı ilə yenidən nəşrə başlayan qəzet sonrakı illərdə də bu adla yaşadı.

İdman mətbuatımızın ən böyük tarixə malik nəşri olan "İdman" qəzeti həm də Azərbaycan mətbuatının ən qocamanlarından biri sayılır. 1932-ci ildə ilk dəfə "Azərbaycan bədən tərbiyəçisi" (Fizkulturnik Azerbaydjana) adı altında işıq üzü görmüş "İdman" qəzetinin artıq 70 - dən çox yaşı var.

Sonrakı illərdə "Ədəbiyyat" (1933), "Azərbaycan pioneri" (1938), "Kirpi" jurnalı (1952), "Bakı" (1958) və s. qəzetləri meydana gəlmişdir.

**VII iştirakçı:** Ümumiyyətlə, "Molla Nəsrəddin" in Tiflisdə 370 nömrəsi, Təbrizdə 8 nömrəsi və Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda 398 nömrəsi çıxmışdır. "Mola Nəsrəddin" çap edilib yayıldıqdan sonra onun təsiri altında Qafqazda, Orta Asiyada, Volqa-boyunda, İranda və İran Azərbaycanında, Dağıstanda və başqa yerlərdə bir sıra satirik və yumoristik jurnallar çıxmışdır. Bu jurnalların bir çoxu "Molla Nəsrəddin"in layiqli ardıcılları olmuş, inqilabi-demokratik ideyaları yaymışdır. Bəzi satirik jurnallar isə liberal görüşlərdən irəli getməmiş, aşağı səviyyədə çıxmışdır.

1911-ci il noyabrın 29-dan Bakıda “Məktəb” adlı yeni bir uşaq jurnalı nəşrə başladı. 1920-ci ildə Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə nəşrə başlayan “Maarif” (cəmi 2 nömrəsi çıxmışdır) və “Qırmızı günəş” (sonra Qızıl cavanlıq 343), 1923-cü ildən çıxan “Gənc pioner”, 1927-ci ildən çıxan “Pioner” jurnalları, “Azərbaycan pioneri” qəzeti və s. mətbuat orqanları yeni nəslin tərbiyə olunmasında mühüm rol oynayırdılar.

Bir çox ölkələri bürüyən yenidənqurma havası Azərbaycana da çatdı və ictimai mühitə kəskin təsir göstərdi. Millətin dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə “Azərbaycan” qəzeti yaradıldı. Müstəqil mətbuatın qaranquşları hesab edilən “Səhər” qəzeti 1989-cu ilin 4 avqust tarixində və “Azadlıq” qəzeti 1989-cu ilin 24 dekabr tarixində işıq üzü gördülər. “Səhər”ə tanınmış jurnalist Məzahir Süleymanzadə, “Azadlıq” a tanınmış jurnalist Nəcəf Nəcəfov rəhbərlik edirdilər.

1990-cı ildə “Zerkalo”, “Səs”, 1991-92-ci illərdə “Yeni Müsavat”, “İki Sahil”, “525-ci qəzet”, “Yeni Azərbaycan” qəzetləri nəşr olunmağa başladı.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı-qəzet və jurnal fəaliyyət göstərir. Milli mətbuatımız illər keçdikcə daha da büllurlaşacaq, saflaşacaqdır. Azərbaycan Respublikasının Prezidentinin sərancamı ilə “Əkinçi” qəzetinin nəşrə başladığı gün – 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqan Ədliyyə Nazirliyində (ƏN) qeydiyyatdan keçib.

Kitabxanada Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar virtual olaraq *“Sözdən başlanan dünya”* adlı **rəsm müsabiqəsi** təşkil etmək olar. Kitabxana və məktəb müəllimlərinin zoom proqramı vasitəsilə onlayn şəkildə təşkil etdiyi rəsm müsabiqə-

sinin ssenarisini sizə təqdim edirik. Bunun üçün məktəblilərə Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar bilgilər, ilk dərc olunan bir sıra qəzet və jurnallar virtual olaraq təqdim edilir. Müəyyən olunmuş vaxtda şagirdlər onlayn şəkildə müsabiqəyə qatılırlar. Əvvəlcədən şagirdlər tərəfindən çəkilən rəsm əsərləri kitabxananın elektron poçt ünvanına göndərilir. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Uşaqlar dahi ədibimiz H.Zərdabinin portretinə xüsusilə də "Əkinçi" yə aid şəkillərə daha çox üz tuturlar. Ən çox diqqəti çəkən motivlər ağ vərəqlərə həkk olunur. Müsabiqənin qaliblərini müəyyən etmək üçün münsiflər heyəti təyin olunur. Sözügedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər.

Kitabxanada Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar keçirilən tədbirlərdən biri də *"Maarifçi insanlar, qəzet yaradanlar"* adlı **rəy sorğusudur**. Tədbirin keçirilməsində əsas məqsəd Milli Mətbuat və Jurnalistika Gününün xalqın maariflənməsində misilsiz rolunu gənc oxuculara tanıtmaqdır. Bunun üçün rəy sorğusu haqqında məlumat kitabxananın müxtəlif adda sosial şəbəkələrində elan olunaraq oxucuların nəzərinə çatdırılır. Sorğuda iştirak etmək istəyən oxucular kitabxananın sosial şəbəkə ünvanlarına onlayn şəkildə müraciət edərək tədbirə qatılırlar. Kitabxana əməkdaşı sualları sosial şəbəkə vasitəsilə oxuculara təqdim edir.

**Kitabxanaçı:** Böyüklüyü və kiçikliyindən asılı olmayaraq, dünyanın bütün xalqları gec-tez öz tarixinə iftixarla yazır: filan vaxtda bizdə ilk məktəb açılmışdır... Birinci qəzet, birinci jurnal, birinci çap kitabı nəşr edilmişdir...

Cəmisi üç-dörd sözlə ifadə olunan bu tarixi həqiqətlərdən hər birinin həmin xalqın həyatında necə mühüm yenilik yaratdığını, onun tərəqqi və yüksəlişi üçün necə əhəmiyyətli olduğunu yalnız o xalqı yaxşı tanıyanlar yaxşı başa düşə bilərlər.

Hər hansı bir xalqın öz ana dilində ilk qəzeti oxumasına gəldikdə, şübhəsiz, bu da həmişə hər yerdə əlamətdar hadisə olur. Öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya isə XVIII əsrin ilk illərində yaratdığı halda, Azərbaycan buna ancaq 1875-ci ildə nail olmuşdur; yəni feodal mütləqiyyəti və orta əsr geriliyinin ucbatından "Əkinçi"nin mənsub olduğu xalqın intizarı çox uzun çəkmişdir.

Dostlar, indi siz çoxlu qəzetlər görür və oxuyursunuz. Onlar gözəl formada, nəfis tərtibatda hətta bəziləri rəngli çap edilirlər. Bəs ilk qəzetlər necə olub, müasir dövrümüzə qədər Azərbaycan mətbuatı hansı yollardan keçmişdir?.. Gəlin bu suala birgə cavab axtaraq.

Suallar:

**1.** Həsən bəy Zərdabi kimdir?

a) Azərbaycan demokratik mətbuatının bünövrəsini qoyan şəxsiyyət +
b) Riyaziyyatçı, alim
c) İlk kitab nəşr edən yazıçı

**2.** Aşağıda adları sadalanan qəzetlərdən hansı ilk dəfə nəşr olunaraq Azərbaycan milli mətbuatının əsasını qoymuşdur?

a) "Kəşkül"
b) "Əkinçi"+
c) "Türkistan"

**3.** Beynəlxalq Söz və Mətbuat Azadlığı Gününün tarixini qeyd edin.

a) 20 Yanvar
b) 28 May
c) 3 May+

**4.** Hansı uşaq jurnallarını tanıyırsınız?

"Göyərçin", "Göy qurşağı", "Sehirli dünya" və s.

**5.** "Əkinçi" qəzeti ilk dəfə neçənci ildə nəşr edilib?

a) 1905-ci ildə
b) 1875-ci il+
c) 1977-ci il

**6.** İlk qəzetimiz olan "Əkinçi" H.Zərdabinin adı ilə bağlı olsa da, Zərdabinin bu yolda bir sıra dəstəkçiləri vardır. Onlar Zərdabinin əqidə yoldaşları idi və aralıqsız olaraq qəzetdə materiallar nəşr etdirirdilər. Onların adlarını sadalaya bilərsinizmi?

S.Ə.Şirvani, Əlimədəd Abdullahzadə, Məmnun Əlqədari Əhsənül-Qəvaid, Məhbus Dərbəndi, N.B.Vəzirov, Əsgər ağa Gorani və s.

**7.** Qəzet, jurnal, televiziya, ümumiyyətlə, mediada işləyən şəxslər hansı peşə nümayəndələri hesab edilir.

a) geoloq
b) pediatr
c) jurnalist+

**8.** Hansı qəhrəman jurnalistlərimizi tanıyırsınız? Hansı ki, onlar öz peşələrini icra edərkən vətən uğrunda şəhid olmuşlar.

Alı Mustafayev, Çingiz Mustafayev, Salatın Əsgərova, Fəxrəddin Şahbazov, Kazımağa Kərimov, Osman Mirzəyev və s.

## Ədəbiyyat siyahısı


**1979**

**1.Əkinçi: 1875-1877:** tam mətni / tərt. ed. T. Həsənzadə; müqəddimənin müəl. və red. Ə. Mirəhmədov. - Bakı: Avrasiya Press, 1979.-463 s.

**2007**

**2.Əhmədov, Q.** Mətbuat tarixindən / Q. Əhmədov ; red. Ə. Əlisəfaoğlu. – Bakı: Araz, 2007. - 96 s.

**2008**

**3.Dadaşov, A.** Televiziya reklamı: demokratiya və bazar iqtisadiyyatı kontekstində dərslik / A. Dadaşov; elmi red. Z. Səmədzadə; rəyçilər. A. Babayev, Q. Məhərrəmli. – Bakı: Nurlan, 2008. - 272 s.

**4.Əkinçi:** Xalq qəzetinin nəşri / H. Zərdabi, F. Ağazadə; red. H. Həsənov; ərəb əlifbasından transliterasiya ed. E. Qasımova; ön söz. T. Aydınoğlu. - Bakı: "Garisma" MMC, 2008. - 54 s.

**2009**

**5.Aşırlı, A.** Azərbaycan mətbuat tarixi: 1875-1920 / A. Aşırlı; red. A. Bayramoğlu. - Bakı: Elm və Təhsil, 2009. - 295 s.

**2010**

**6.Aşırlı, A.** Azərbaycan mətbuat tarixi: 1920-1990 /A. Aşırlı; elmi red. C. Məmmədli. - Bakı: Elm və Təhsil, 2010. - 225 s.

**2013**

**7.Mirəhmədov, Ə**. Azərbaycan jurnalistləri və naşirləri: ensiklopediya /Ə. M. Mirəhmədov; red. İ. Zəkiyev; tərt. ed. D. Ə. Mirəhmədova.- Bakı: Ərgünəş, 2013. - 272 s.

**Azərbaycan milli mətbuatının ilk qaranquşu – Əkinçi**

(metodik vəsait)

**Komputer yığımı
və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**